Caspian
Consulting

Caspian Plaza III, 14th floor
44, J.Jabbarli str., Baku, Azerbaijan
Phone: (+994 12) 596 15 17/18
Fax: (+994 12) 596 30 31
E-mail: office@cc.baku.az
www.caspian-consulting.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "PAŞA SIĞORTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

### rəhbərliyinə

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 22 iyul 2010-cu il tarixli AT 22 saylı lisenziyaya əsasən fəaliyyət göstərən Kaspian Konsaltinq Auditor Şirkətinin auditoru Heydərov Tamerlan Vagifoviç "Paşa Sığorta" ASC ilə bağlanmış 15 fevral 2011-ci il tarixli № 024 saylı müqaviləyə əsasən, həmin cəmiyyətin 01.01.2010-cu il tarixdən 31.12.2010-cu il tarixədək olan dövr üzrə balans, maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat və balansa əlavədən ibarət olan maliyyə hesabatlarının və vergi bəyannamələrinin düzgünlüyünün auditini aparmışam.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının və vergi bəyannamələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının və vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standartlar məndən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında və vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının və vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının və vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Mənim fikrimcə, 31.12.2010-cu il tarixinə Cəmiyyətin maliyyə hesabatları və vergi bəyannamələri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 25.02.2011-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə Kaspian Konsaltinq Auditor Şirkətində saxlanılır.

KASPIAN KONSALTINQ AUDITOR ŞIRKƏTI
CASPIAN CONSULTING COMPANY
BAKU, AZƏRBAYCAN RESPUBLİKASI
AZERBAIJAN REPUBLIC

Kaspian Konsaltinq Auditor Şirkəti
**Direktoru** **E.A.Abasov**

**Auditor** **T.V. Heydərov**